**Yaranma tarixi:** 2016-cı il
Məqsəd: Korporativ sosial məsuliyyət çərçivəsində təhsilin keyfiyyətinin yüksəldilməsində ictimaiyyətin iştirakına imkan yaradılması, əlavə təhsil imkanları ilə şagirdlərin bilik və dünyagörüşünün artırılmasıdır.

**Məlumat:** “Azərbaycan üçün öyrət” təhsil proqramı “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na uyğun olaraq, ümumtəhsil məktəblərində keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasını təmin edən təhsil proqramıdır.

**Əhatə dairəsi:** Proqram fəaliyyətini yay aylarında “Təhsil avtobusu” yay məktəbi vasitəsilə davam etdirir. “Təhsil avtobusu” yay məktəbi ölkəmizin müxtəlif şəhər və rayonlarını əhatə edən təhsil marafonudur. Proqram Təhsil Nazirliyi başda olmaqla bir sıra dövlət və özəl qurumlarla korporativ sosial məsuliyyət çərçivəsində əməkdaşlıq edir.